# “Qobustan” dərgisi “muzeyləşib”

**Sənət toplusu kimi 1969-cu ildən buraxılan “Qobustan” dərgisinin yenicə işıq üzü görən payız sayında bütünlüklə gənclərin milli-mədəni, estetik tərbiyəsində xüsusi önəm daşıyan muzeylərdən bəhs edilib.**




Bu sayda həm paytaxtda, həm də bölgələrimizdə olan müxtəlif muzeylər haqqında geniş araşdırma yazıları yer alıb. Sənətşünas Ayaz Salayev, publisist Esmira Nəzərli, yazıçı-publisist Narıngül Nadir, şair-esseist Ramil Əhməd, ədəbiyyatşünas Minəxanım Təkləli, Dürdanə Qurbanova, yazıçı-dramaturq Pərvin və digər müəlliflərin yazılarında düşmənin talan etdiyi Şuşa muzeylərinə, Milli Ədəbiyyat, İncəsənət və Tarix muzeylərinə, 100 yaşlı Milli Kitabxanaya və digər sənət məbədlərinə səyahət edilib.

Dərgidə milyonçu-mesenat Hacı Zeynalabdin Tağıyevin, unudulmaz Xalq şairi Səməd Vurğunun Ev-muzeyləri haqqında yazılar da verilib. Bu məqalələr böyük şəxsiyyətlərin həyat hekayələrinə onların maddi yadigarları vasitəsilə nəzər salmaq fürsəti yaradır. Quba Memorial Kompleksi və Repressiya muzeyləri haqqında dərgidə verilmiş materiallarda isə xalqımızın keçdiyi çətin və kəşməkəşli, eyni zamanda qürur dolu tarixi yoldan bəhs edilir.

Qeyd edək ki, “Qobustan”ın yaradıcı heyəti hər il dərginin bir neçə sayını belə aktual tematik mövzulara həsr etməklə diqqətdən kənarda qalmış ayrı-ayrı sənət sahələri və ictimai-mədəni hadisələrin populyarlaşmasına töhfə verməyə çalışır.

***XQ***

Xalq qəzeti.- 2023.- 12 oktyabr, № 222.- S.10.